# XAŞ

*Hekayə*



***Vaqif İsaqoğlu***

Şofer Zahid iri, motal qarnını sükana dirəyib qollarını geniş açdı və şirin-şiirn gərnəşdi.

Kabinədə daha iki nəfər vardı və həmin o iki nəfərdən biri Dəllək Fazil əsnəyə-əsnəyə dedi:

- Acından qarnım quruldayır.

Hələ də iri, motal qarnını sükana söykəyib şirin-şirin gərnəşən şofer Zahid key-key ona baxıb dedi:

- Yarımsaatdan sonra Rza bəyin xaşından yeyib özümüzə gələrik. - O, bu sözləri deyib dili ilə dodaqlarını yaladı və sonra da sağ əlilə iri, motal qarnını sığallayıb hələ də əsnəməkdə olan Dəllək Fazilə baxıb dodaqaltı mızıldandı:

**Bu gecəni vurduq başa,**
**Yaşa, qarnım yaşa.**

Hava yavaş-yavaş işıqlaşırdı. Hava yavaş-yavaş işıqlaşdıqca onların iştahı daha da artırdı.

Qol saatına baxdı. Yeddiyə işləyirdi. Ürəyi sevinclə döyünməyə başladı. 10-15 dəqiqədən sonra Rza bəyin bişirdiyi xaşdan ləzzətlə yeyəcəyini düşünüb sürəti daha da artırdı.

Yük maşını Rza bəyin "Kefli beçə" adlandırdığı kafesinin yanında fısıldayaraq dayandı. Şofer Zahid iri, motal qarnını bir daha sığallayıb ətli boynunu sağa-sola fırladaraq idmançı cəldliyilə qapını açıb yerə tullandı. Onun bu hərəkətinə qıraqdan baxan olsaydı, gülməyi tutardı. Əslində burada gülməli heç nə yoxuydu. O, buna adət eləmişdi. Yük maşınını "Kefli beçə"nin yanında saxlayan kimi sanki ona bir güc gəlirdi, özünü 20-25 yaşlarında bir oğlan kimi hiss eləyirdi. Amma onun 57 yaşı vardı. 25 ildən çoxuydu ki, "Kamaz"la yük daşıyırdı. 25 ildən çoxuydu ki, bu yolu gəlib-gedirdi. Ayın on beş, on altı gününü yollarda olardı və hər səhər hava işıqlaşanda "Kamaz"ı "Kefli beçə"nin yanında saxlayıb Rza bəyin bişirdiyi xaşdan- yəni kəllə-paçadan ləzzətlə yeyib elə ləzzətlə də iri, motal qarnını sığıllayardı.

"Kefli beçə" kafesi hər səhər hava işıqlaşar-işıqlaşmaz "Kamaz" şoferlərilə dolu olardı. İçəridə yeddi-səkkiz yemək stolu vardı və hər stolun arxasında 4-5 nəfər əyləşib laqqırtı vura-vura xaş yeyərdi. Qəribədir ki, "Kamaz" şoferlərinin hamsı bir-birinə oxşayırdı. İri, motal qarınlı, yoğun boyunlu bu balacaboy şoferlərin hamsını elə bil ki, bir ana doğmuşdu. Düzdür, hərdən arıq, hündürboy şoferlərə də rast gəlmək olurdu, amma dörd-beş aydan sonra Rza bəyin xaşı onlara da öz təsirini göstərirdi. Onlar da yavaş-yavaş qarın "buraxırdı". Onların qarnı yekələndikcə, boyunları yoğunlaşdıqca boyları da balacalaşırdı. Və bu balacaboy "Kamaz" şoferləri dünyanın gözəlliyini, həyatın mənasını "Kefli beçə"də görürdülər. Hətta bir dəfə şofer Zahid demişdi ki, dünyanı gözəllik yox, xaş xilas edəcək. Xaş bütün dünya xalqlarını birləşdirən yeganə qida məhsuludur ki, onu da Rza bəydən yaxşı bişirən yoxdur.

Doğrudan da "Kefli beçə"də bişirilən xaşın səsi-sorağı hər yana yayılmışdı. Hətta türklər də "Tır"larını burada saxlayır, onlar da Rza bəyin xaşından yeyərək "Kamaz" şoferləri kimi qarın buraxmağa başlayırdılar.

Şofer Zahid irişə-irişə içəri keçib hamıyla salamlaşdı və adəti üzrə öz yerində - pəncərənin yanında əyləşdi.

- Ay Aza bəy, bir az cəld tərpən. Bütün gecəni maşın sürmüşəm. - Əllərini bir-birinə sürtüb istər-istəməz dililə dodağını yaladı və əlavə elədi: - Bu xaş olmasaydı, görən neyləyərdik. Başımıza haranın daşını tökərdik? Axırımız necə olardı?- Üzünə qəm buludu çökdü.

Rza bəy iri bir dırnağı dərin bir nimçəyə qoyaraq dedi:

- Allah bizim bir günümüzü xaşsız eləməsin.

- Amin. - Hamı bir ağızdan dilləndi. Rza bəy gülümsəyərək üzünü şofer Zahidə tutdu və şirin bir səslə soruşdu:

- De görüm, başqa ölkələrdə də bizim kimi xaş bişirə bilərlərmi?

Şofer Zahid iri bir tikəni çeynəmədən udub yağlı əllərini dəsmalla silərək əlini çörəyə uzatdı:

- Bu çörək haqqı onlar nəinki xaş, heç dolma da bişirə bilmirlər. - Çiyinləri atıla-atıla gülməyə başladı.

O biri stoldan kimsə dilləndi:

- Hələ bir ermənilərə baxın, az qalmışdı ki, bizim dolmanı öz adlarına çıxartsınlar. Sağ olsun Zahir Şiraslanovu. Almaniyada, Fransada, nə bilim İngiltərədə açıqca bəyan elədi ki, dolma ermənilərin deyil, bizimdi.

- Zahir Şiraslanov kimdir? - Şofer Zahid təəccüblə soruşdu.

- Ayə, necə yəni kimdi? Bizim yeməkləri dünyaya tanıtdırır. İndi Fransadadır. Ayranımızı təbliğ edir. - Bayakı adam fəxrlə bildirdi.

Ortalığa səssizlik çökdü. Sonra bu səssizliyi sürücülərin mırçıltısı "darmadağın" elədi. Onlar ağızlarını mırçıldadaraq kəllə-paçadan elə ləzzətlə yeyirdilər ki, kənardan baxan olsaydı, ağzı sulanardı.

Rza bəy səssizliyi pozan bu mırçıltıdan istifadə edərək televizoru işə saldı.

- Rza bəy, sən canın, söndür o zibili.

- A kişi, qoy qulağımız Quran səsi eşitsin. - Kimsə mızıldandı.

Rza bəy televizoru söndürdü. Sonra yenə də şofer Zahidə üzünü tutub dedi:

- A Zahid, dünyagörmüş adamsan. Bir de görüm, ermənilər xaşı öz adlarınva çıxsaydılar, nə edərdin?

- "Kamaz"ı birbaşa sürərdim Yerevana.

Hamı onun bu sözünə güldü. Bayaqdan lal-dinməz oturub ikinci boşqabı yarıya endirən Hiylə Yolçu da özünü saxlaya bilməyib çiyinləri atıla-atıla gülməyə başladı.

- Sən niyə gülürsən, ə ? - Şofer Zahid deyəsən pərt olmuşdu. - Bunun bir gülməyinə-zadına bax. - Hirslənən kimi oldu.

Rza bəy tələsik işə qarışdı:

- A kişilər, Zahidin sözünü qəribçiliyə salmayın. Düz deyir də Bizim xaşı, dolmanı, pitini öz adına çıxmaq istəyənin anası ağlar qalar. Bu ermənilər lap ağ eləyiblər. Şuşanı aldılar, dinmədik, Laçını aldılar, dinmədik, Kəlbəcəri aldılar, bir söz demədik. 26 ildir ki, gözləyirik. Hələ də çıxıb öz xarabalarına getmirlər. Qorxmurlar ki, birdən tərs damarımız tutar. Hələ həyasızlığın dərəcəsinə bax ki, indi də dolmanı, plovu, nə bilim pitini öz adlarına çıxmaq istəyirlər. Yaxşı ki, vaxtında ayıldıq. Yoxsa dolma da, piti də, hələ üstəlik yediyiniz bu xaş da əldən getmişdi. - Kövrəldi. Üzünü yana çevirib yaşarmış gözlərini sildi.

Qəflətən şofer Zahiddən bir hönkürtü qopdu. Uşaq kimi ağlamağa başladı.

- İnanın mənə. 26 ildir ki, Laçınsız, Şuşasız, Kəlbəcərsiz, nə bilim Zəngilansız yaşayıram. Bu dərdə dözmək olar, amma xaşsız, dolmasız bir gün də yaşaya bilmərəm. Bizim dolmamıza, pitimizə, xaşımıza əl uzadanın basıb gözlərini çıxardaram.

Şofer Zahid sözünü tamama yetirən kimi hamı bir göz qırpımında ayağa durub yağlı əllərini bir-birinə vuraraq çəpik çalmağa başladı.Onların bu həmrəyliyi, bu birliyi şofer Zahidi daha da kövrəltdi. Burnunu çəkib mehribanlıqla şofer yoldaşlarına baxdı.

Ortaya ölü bir sükut çökdü. Rza bəy yenə də bu səssizlikdən istifadə eləyib televizoru işə saldı. Ekranda qəşəng bir qız göründü. Diktor idi. Deyəsən, xarici xəbərlərə keçid almışdı: - Amerikalılar "Qırmızı planet"də su olub-olmadığını öyrənmək üçün yeni kosmik peykini orbitə buraxıblar.

Kimsə yerindən söz atdı. - Bu amerikalıların da başı xarab olub. A kişilər, yuxarıda da su olarmı? Məgər bilmirlər ki, yuxarıda su dayanmaz, axıb başımıza tökülər.

- Başları işləmir də - Şofer Zahid qətiyyətlə bildirdi və sonra da əlavə etdi: - Onlar da Rza bəyin xaşından yesələr, ağılları başlarına gələr. Əgər onlar da hər səhər keçi qıç salmazdan xaş yesələr, Allahın işinə qarışmağa cəsarət eləməzlər - Sağ əlini üzünə aparıb salavat çevirdi.

Diktor indi də başqa bir xəbərə keçid almışdı. Fransada sarjiletlilərin etiraz aksiyasından danışırdı. Parisin küçələrində elə bil ki, müharibə gedirdi. Aləm bir-birinə qarışmışdı. Yandırılan avtomobillər bu mənzərəni daha dəhşətli edirdi. Polislər aciz durumda qalmışdılar. Nə edəcəklərini bilmirdilər. Əslində, onlar öz ürəklərində sarıjiletlilərə bəraət qazandırırdılar. Bu onların hərəkətlərindən də hiss olunurdu. Hiss olunurdu ki, polislər də sarıjiletlilərlə həmrəydirlər. Bu həmrəylik polislərin passiv hərəkətlərindən də hiss olunurdu.

- Fransızlar nə istəyir görəsən. Bizim Dərviş Məstəli şah bir vaxtlar Parisi alt-üst elədi, yenə də ağılları başlarına gəlmədi. Qorxmurlar ki, yenə də bir Dərviş Məstəli şah irəli çıxıb onların gününü göy əskiyə bükər. - Sonra o, üzünü Rza bəyə tutub dedi:

- Bütün günü yollardayam. Dünyada nələr baş verdiyindən xəbərim yoxdu. Sənin bu televizorun bu barədə nə deyir:

- Nə deyəcək! - Rza bəy içini arıtlayıb dilləndi. - Gördüyün o sarıjiletlilər benzinin qiymətinin qaldırılmasına görə etiraz edirlər. Hökumət də qalıb pis vəziyyətdə. Tüpürdüyünü yalamaq istəmir.

Şofer Zahid cin atına mindi. Yumruğunu stola çırpıb dəli kimi bağırdı:

- Pah atonnan! İşə bir bax. Yapışasan bu sarıjiletlilərin yaxasından və soruşasan ki, ayə, köpəkoğlu benzin sənin dədənindi? Benzin hökumətindi. İstəsə qiymətini qaldırar, istəsə endirər. Bu, onun öz işidir. Hökumətlə hökumətlik eləmək olaz. Düz demirəmmi?

Hamı bir nəfər kimi onun sözünə qüvvət verdi:

- Düz deyirsən.

Kimsə yerində qurcalanıb səsinin yoğun yerinə saldı:

- Vallah, bu fransızlar qudurub. O qədər harınlayıblar ki, hökumətin üzünə ağ olublar. Əgər onlar da hər səhər xaş yesəydilər, dünya dağılsa da veclərinə olmazdı. Xaş yeməyən millət, millət deyil, dünyanın üz qarasıdı.

Yenə də hamı yerbəyerdən dilləndi:

- Düz deyirsən. Afərin sənə. Ağıllı adamsan. Görünür, imtahan verib "prava"nı özün almısan.

Bu sözlərdən ruhlanan həmin sürücü yenidən səsinin yoğun yerinə saldı:

- Zahir Şiraslanova demək lazımdır ki, xaşın faydaları haqında fransızlara geniş məlumat versin. Yaxud prezidentə çatdırsınlar ki, Fransada hər ay "Xaş həftəsi" keçirilməsi barədə sərəncam imzalasın. Onda görüm bir köpəkoğlunun səsi çıxacaqmı.

- Zahir müəllim əlindən gələni eləyir. Almaniyada, İsveçrədə, ingiltərədə və başqa ölkələrdə milli xörəklərimizdən ibarət kitablar xüsusi yer alıb. İndi bütün avropalılar yaxşı bilirlər ki, dolma Azərbaycanın milli xörəyidi. Və heç kim cürət eləyib dolmanı əlimizdən ala bilməz.

- Sən bunu hardan bilirsən? Avropaya getmişdin? - Şofer Zahid üz-gözünü turşutdu.

- Mən getməmişdim, qardaşım oğlu gedib.

- Qardaşın oğlu kimdi? - Şofer Zahid səsinin tonunu bir az aşağı saldı.

- Necə yəni kimdi? - Zeynalovun kürəkənidi. Pula pul demir. Hər yeri gəzib. Özü danışır ki, hansı ölkəyə getsə, mütləq kitab mağazalarına baş çəkir. Hər kitab mağazasında "Azərbaycan mətbəxi" nə bilim "Azərbaycan xörəkləri" kitabları satılır. Hələ "Xaş" adlı ayrıca bir kitab da var. Biz bununla fəxr etməliyik.

- Əlbəttə. - Şofer Zahid gülümsədi. - Vallah almanların, ingilislərin, fransızların, amerikalıların, eləcə də yaponların başı heç nədən çıxmır, amma onların ətli başından yaxşı xaş çıxar. - Gülməyə başladı. Hamı ona qoşuldu. Rza bəy də gözləri yaşaranacan gülüb sağ əlini şofer Zahidin çiyninə qoydu və sevinclə dedi:

- Kişi düz deyir də Adam kimi danışan robort düzəldə bilirlər, amma xaş bişirə bilmirlər. Bir millətin ki, menyusunda xaş yoxdur, o millətin nə gələcəyi olacaq!

Şofer Zahid divardan asılmış İran saatına baxıb ayağa durdu. Sonra əlini cibinə salıb həmişəki kimi stolun üstünə bir onluq tullayıb dərindən nəfəs aldı, sonra da əlilə qarnını sığallayıb çıxışa doğru getdi.

Rza bəy onu qapıya kimi ötürüb heç kimin eşidə bilməyəcəyi tərzdə dedi:

- Sənə bir sirr açmaq istəyirəm.

- Nə sirr? - Şofer Zahid təəccüblə soruşdu.

- Öz aramızda qalsın. Hələlik heç kimə demə. Bu günlərdə müdafiə edəcəyəm.

- Nə müdafiə?

- Xaş üzrə fəlsəfə doktoru olacağam.

Şofer Zahidi gülmək tutdu, amma gülmədi. İri, motal qarnına bir sığal çəkib Rza bəyin düz gözlərinin içinə baxdı. Onun bu baxışlarından Rza bəyin canına bir qorxu düşdü. Bu qorxu onun səsində də hiss olundu.

- Piti üzrə on nəfər müdafiə eləyib. Dolma üzrə beş nəfər alim adına layiq görülüb. Mənim mövzumun adı isə belədir: "Xaşın həyatımızda rolu və əhəmiyyəti". - Elmi rəhbərim akademik Əhməd Babaoğludu. Yəqin eşitmiş olarsan.

- Yox, eşitməmişəm. - Şofer Zahid yenidən əlini iri, motal qarnına çəkib soruşdu:

- Buunları mənə niyə deyirsən? Get, müdafiəni elə də.

- Tələsmə, bir az səbr elə. - Rza bəy pencəyinin sol cibindən bir zərf çıxarıb şofer Zahidə uzatdı. - Dörd min manatdı. Bunu akademik Babaoğluna verərsən. Onsuz da üç-dörd gün Bakıda qalacaqsan.

- Yaxşı. - Şofer Zahid zərfi cibinə qoyub yenidən təəccüblə soruşdu:

- Doğrudan müdafiə eləyəcəksən?

- Əlbəttə! Axı kimdən əskiyəm. Keçəl halva yeyər, puluna minnət. Birdə ki, mən xaş üzrə fəlsəfə doktoru olan kimi ermənilərin anası ağlar qalacaq. Onlara bu yolla ölümcül zərbə vuracağam. - Sevinclə əllərini bir-birinə sürtdü. Sonra da əlavə etdi: - Zərfin üstündə akademikin əlaqə nömrəsi var. Di, sənə yaxşı yol! - Rza bəy onun əllərini bərk-bərk sıxıb geriyə döndü.

Şofer Zahid sükanın arxasına keçib motoru işə saldı. Sonra da yanında əyləşən Dəllək Fazilə üzünü tutub dedi:

- Sən niyə müdafiə eləmirsən? - Sualına cavab gözləmədən maqnitofonu işə saldı. Bir andaca "Maral, maral" - deyə Kazım Kazımlı oxumağa başladı. Dəllək Fazil qaşlarını çatıb bərk fikrə getmişdi. Şofer Zahidin "Sən niyə müdafiə etmirsən?" sualına cavab tapa bilmirdi.

**15 iyun, 2019**